Agatha Christie

# BEŞ BALACA DONUZ

Tərcüməçi:
Ziyad Quluzadə

QANUN NƏŞRİYYATI

Agatha Christie

# FIVE LITTLE PIGS

Karolinin qızı Karla on altı ildən sonra anasının günahsız olduğunu isbat etməkdə qətiyyətlidir. Erkül Puaro eşq sərgüzəştləri ilə tanınan rəssam Amyasın qatilini axtarır. On altı ildən sonra bütün faktların, demək olar ki, yox olduğu bu cinayət hadisəsində Puaronun bələdçisi – şahidlərin xatirələridir. Şahidlər çox yaşlanıb və artıq illərin təsiri ilə keçmişdə baş verən bu faciəni fərqli xatırlayırlar.

Ərini zəhərləyərək öldürməkdə ittiham olunan gözəl Karolin günahsızdırmı? Günahkarların illərlə zənginlik və xoşbəxtlik içərisində yaşadığı həyatda, başqalarının günahının cəzasını çəkən Karolin Kreylin taleyin bədbəxt bir oyununun qurbanı olduğu isbat ediləcəkmi?

**Agatha Christie** **FIVE LITTLE PIGS**
**Aqata Kristi** **BEŞ BALACA DONUZ**

Janr: detektiv
Yaş qrupu: 12+
Ölçü: 130x200
Cild: yumşaq
Səhifə sayı: 256

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Ziyad Quluzadə |
| Redaktor: | Seymur Verdizadə |
| Mətn dizaynı: | Rahilə Şamilqızı |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-716-4

© Qanun Nəşriyyatı, 2019
Five Little Pigs © 1942 Agatha Christie Limited.
All rights reserved. AGATHA CHRISTIE and POIROT
are registered trade marks of Agatha Christie Limited
in the UK and/or elsewhere.

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli
hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

*Stiven Qlenvillə həsr olunur…*

# MÜNDƏRİCAT

GİRİŞ ........................................................................9

BİRİNCİ KİTAB

*Birinci fəsil.* Müdafiə vəkili ..................................... 20
*İkinci fəsil.* Prokuror ..................................................32
*Üçüncü fəsil.* Gənc vəkil ..........................................40
*Dördüncü fəsil.* Yaşlı vəkil ........................................45
*Beşinci fəsil.* Polis müfəttişi .....................................52
*Altıncı fəsil.* Birinci balaca donuz bazara getdi....73
*Yeddinci fəsil.* O biri balaca donuz evdə qaldı......89
*Səkkizinci fəsil.* Üçüncü balaca donuza yemək verdilər ..........................................................................119
*Doqquzuncu fəsil.* Dördüncü balaca donuza heç nə çatmadı... ..................................................134
*Onuncu fəsil.* Beşinci balaca donuz ağladı ...........147

## İKİNCİ KİTAB

Filip Bleykin qeydləri ........................................ 159
Meredit Bleykin qeydləri ........................................ 174
Xanım Dittişamın qeydləri ........................................ 182
Dayə Sesiliya Vilyamsın qeydləri ........................................ 194

## ÜÇÜNCÜ KİTAB

*Birinci fəsil.* Nəticələr ........................................ 207
*İkinci fəsil.* Puaro beş sual verir ........................................ 212
*Üçüncü fəsil.* Keçmişə səyahət ........................................ 225
*Dördüncü fəsil.* Həqiqət ........................................ 241
*Beşinci fəsil.* Son ........................................ 250

# GİRİŞ

## Karla Lemarçant

Erkül Puaro otağa girən gənc qadına diqqət və maraqla baxdı.

Onun yazdığı məktubda elə əhəmiyyətli bir şey yox idi. Bu xüsusi məqsədi olmayan sadə bir görüş tələbiydi. Həddindən artıq qısa və bir o qədər də ciddi idi. Məktubdakı xətt Karla Lemarçantın gənc qadın olduğunu isbatlayırdı.

Onun qarşısında iyirmi yaşlarında, gənc, xeyli təravətli və hündür qamətli, gözəl bir xanım dayanmışdı. Əminliklə deyə bilərəm, o xanım elə gözəl idi ki, bir baxan, ikinci dəfə də dönüb baxmaq istəyirdi. Göz oxşayan möhtəşəm libası var idi. Bahalı və gözəl zövqlə biçilmiş pencək, ətək, zərif çiynində ecazkar xəfifliyi olan qiymətli kürk... Başı və çiyinləri arasında həlim bir ahəng görmək mümkün idi. İncə burun cizgiləri, onun qətiyyətliliyinin nümayişi olan çənəsi vardı. Görünüşündəki təbiilik və canlılıq cəlbediciydi. Əslində, nəzəri cəlb edən məqam onun fiziki gözəlliyindən çox, qamətindəki əminlik və qətiyyət idi.

O gəlməmişdən əvvəl Erkül Puaro özünü yaşlı və yorğun hiss edirdi. Ancaq indi daha gənc və canlıdır. Xanıma salam vermək üçün azca yaxınlaşdığı məqamda da qadının gömgöy gözlərinin onu diqqətlə nəzərdən keçirdiyinə əmin idi. Xanım qarşısındakı adamı süzdü. O əyləşdi və təklif edilən siqarı götürdü. Bir dəqiqə daha oturmaq və ya ikinci siqarı də çəkmək üçün yerindən tərpənmədi, qarşısındakı şəxsə detallı, düşüncəli bir tərzdə baxırdı.

Puaro sakitcə dilləndi:

– Bəli, qərar verməliyik, elə deyilmi?

O danışmağa başladı.

– Bağışlayın, – dedi. – Onun səsində cəlbedici, həlim və lütfkar bir kobudluq hiss olunurdu.

– Fikirlərinizi dəqiqləşdirirsiniz, elə deyilmi? Mən bir fırıldaqçıyam, yoxsa sadəcə sənin ehtiyacınız olan bir insan?

O güldü:

– Bəli, təqribən belə bir şey. Cənab Puaro, siz heç də düşündüyüm kimi görünmürsünüz.

– Mən yaşlıyam, elə deyilmi? Sizin düşündüyünüzdən də yaşlıyam?

– Bəli, o da var, – dedi. Bir anlığına tərəddüd etdi. – Mən açıq sözlü insanam. Bu sahədə işləyən ən dəqiq və mükəmməl xəfiyyə lazımdır.

– Buna əmin ola bilərsiniz, – dedi. – Mən ən mükəmməliyəm.